UOT 327
DOI: https://doi.org/10.30546/19063.2026.03.005.2051

# İQLİM DƏYİŞİKLİYİ ÜZRƏ QLOBAL ƏMƏKDAŞLIĞIN TARİXİ TRAYEKTORİYASI VƏ TRANSFORMASİYASI COP PROSESİ ÇƏRÇİVƏSİNDƏ

**ZEYNƏB ANAR QIZI QİYASOVA**
*Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin doktorantı*
*Akademik Zahid Xəlilov küçəsi 33, AZ1148*
*E-mail: zeynabgiyasova@gmail.com*

**XÜLASƏ**

Məqalə iqlim dəyişikliyi ilə mübarizə sahəsində qlobal əməkdaşlığın formalaşması və inkişafını BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası və Tərəflər Konfransları (COP) çərçivəsində təhlil edir. XXI əsrin ikinci rübünə doğru irəlilədikcə beynəlxalq ictimaiyyət sülh və rifah, ümid və yenilənmə, birlik və bağlılıq, dayanıqlılıq və inklüzivlik kimi ortaq bəşəri dəyərlər üzərində düşünməyə daha çox ehtiyac duyur. Bu dəyərlər iqlim dəyişikliyi kimi qlobal çağırışlar fonunda dövlətlərin kollektiv məsuliyyətini və əməkdaşlıq zərurətini ön plana çıxarır.

Tədqiqat göstərir ki, təbiətin qorunmasına yönəlmiş sosial hərəkatların tarixi XIX əsrin sonlarına qədər uzansa da, onların institusional formalaşması və çoxtərəfli danışıqlar müstəvisinə keçidi XX əsrin ikinci yarısında baş vermişdir. Bu proses iqlim yönümlü diplomatiyanın yaranmasına zəmin yaratmışdır. Diplomatiya münaqişələrin həlli və əməkdaşlığın qurulması üçün əsas xarici siyasət aləti olduğundan, iqlim dəyişikliyinin cəmiyyətlərə və qlobal təhlükəsizliyə təsiri bu sahədə yeni diplomatik yanaşmaların formalaşmasını qaçılmaz etmişdir.

Araşdırmada qeyd olunur ki, 1992-ci ildə Rio-de-Janeiro Konfransı nəticəsində sənədlər hazırlanmış, bu konfrans UNFCCC çərçivəsinin mərkəzi koordinasiya mexanizmini təşkil etmişdir. UNFCCC Kyoto, Kopenhagen, Paris və Qlazqo kimi COP-lar arasında davamlılığı təmin edən institusional və əməliyyat memarlığıdır.

**Açar sözlər:** *iqlim dəyişikliyi, qlobal əməkdaşlıq, COP prosesi, iqlim siyasəti, Kioto Protokolu, Paris Sazişi.*

## Giriş

1979-cu ildə elm adamları ilk Dünya İqlim Konfransında iqlim dəyişikliyi elmini müzakirə etmiş və iqlim sistemində sürətlənmiş dəyişikliklərin təsirlərini azaltmaq üçün tədbirlər görülməsini tövsiyə etmişlər. Eynilə, 1988-ci ildə Toronto Konfransı (The Toronto Conference on the Changing Atmosphere) qlobal çərçivəli bir konvensiyanın hazırlanmasını məsləhət görmüşdür. Bundan əlavə, BMT Baş Assambleyası 1990-cı ildə Hökumətlərarası Danışıqlar Komitəsini (INC) təsis etmişdir ki, iqlim dəyişikliyi üzrə hüquqi məcburi alətin layihəsini hazırlasın [1].

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (Framework Convention on Climate Change, UNFCCC) atmosferdə istixana qazlarının konsentrasiyalarını sabitləşdirməklə “insanların iqlim sisteminə təhlükəli müdaxiləsi” ilə mübarizə aparmaq üçün ölkələr arasında beynəlxalq müqavilədir. Konvensiyanın mətni 1992-ci il aprelin 30-dan mayın 9-dək Nyu-Yorkda Hökumətlərarası Danışıqlar Komitəsinin iclası zamanı hazırlanmışdır. Konvensiya 9 may 1992-ci ildə qəbul edilmiş və 4 iyun 1992-ci ildə Rio-de-Janeyroda Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit və İnkişaf üzrə Konfransında (UNCED) imzalanmaq üçün açılmışdır [4]. Dövlətlər qlobal orta temperatur artımını məhdudlaşdırmaq, iqlim dəyişikliyinin təsirləri ilə mübarizə aparmaq və qaçılmaz nəticələrə uyğunlaşmaq məqsədilə beynəlxalq əməkdaşlıq çərçivəsi kimi UNFCCC-yə qoşulmuşlar [7]. 12 iyun 1992-ci ildə 154 ölkə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını (UNFCCC) imzalamışdır, bu sənəd ratifikasiya edildikdən sonra imzalayan ölkələrin hökumətləri istixana qazlarının atmosferdəki konsentrasiyalarını azaltmağı öhdəsinə götürmüşdür. Müqavilə 21 mart 1994-cü ildə qüvvəyə minmişdir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası həm də Almaniyanın Bonn şəhərindəki BMT Kampusunda ofisləri olan, konvensiyanın fəaliyyətinə dəstək verməklə məsul Katibliyin adıdır. Katiblik öncə Cenevrədə olsa da, 1996-cı ildə Bonn şəhərinə köçmüşdür [4].

UNFCCC-nin əsas məqsədi, atmosferdə istixana qazları konsentrasiyasını belə bir səviyyədə sabitləşdirməkdir ki, iqlim sisteminə təhlükəli antropogen müdaxilənin qarşısı alınsın. Bu səviyyələrə çatmaq üçün kifayət qədər zaman çərçivəsi nəzərdə tutulur ki, ekosistemlər təbii şəkildə iqlim dəyişikliyinə uy-

ğunlaşa bilsin, ərzaq istehsalına təhlükə yaranmasın və dayanıqlı iqtisadi inkişaf təmin olunsun. Konvensiyada, həmçinin, bərabərlik və “Ortaq, lakin fərqləndirilmiş məsuliyyətlər” (CBDR) prinsipləri yer alır, bu da inkişaf etmiş ölkələrdən iqlim dəyişikliyi və onun mənfi təsirləri ilə mübarizədə öncül rol götürmələrini tələb edir. COP, Maliyyə Mexanizminin əməliyyat qurumu kimi Qlobal Ətraf Mühit Fondunu (GEF) təyin etmişdir [8].

COP (Conference of the Parties; Tərəflərin Konfransı) 1995-ci ilin mart ayında Almaniyanın Berlin şəhərində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası üzərində ali qərarların verilməsi üçün yaradılmış qurumdur. COP bu konvensiyanın ən üst qərarverici qurumudur [4]. Demək olar ki, konvensiya universal üzvlüyə malikdir. Konvensiyanı ratifikasiya edən ölkələr “Konvensiyanın Tərəfləri” adlanır (hazırda 198 ölkə) və COP-da təmsil olunurlar [7]. COP-un missiyası konvensiyadan irəli gələn tələblərin, tövsiyələrin icrasına nəzarət etməkdir. Bu tələblər əsasən qlobal istiləşmə tempini səngitmək, qlobal istiləşməyə məruz qalan ərazilərin adaptasiyasına dəstək olmaq və 2050-ci ilə qədər “0” - sıfır emissiyaya nail olmaqdır.

Hər il keçirilən konfransa rəhbərlik və ev sahibliyi edəcək dövlət BMT-nin 5 regional qrupunu (Afrika ölkələri, Asiya ölkələri, Latın Amerikası və Karib ölkələri, Mərkəzi və Şərqi Avropa ölkələri, Qərbi Avropa və digər ölkələr) təmsil edən 198 ölkənin səsverməsi ilə seçilir.

Müqavilə imzalayan dövlətlərin üç kateqoriyası üçün müxtəlif məsuliyyətlər müəyyən edilib. Bu kateqoriyalar inkişaf etmiş ölkələr, xüsusi maliyyə öhdəlikləri olan inkişaf etmiş ölkələr və inkişaf etməkdə olan ölkələrdir. Şəkil 1-də Əlavə 1-ə (Annex I) daxil edilmiş ölkələr əsasən inkişaf etmiş ölkələr blokudur (ABŞ, Avstraliya, Kanada, Avropa İttifaqı). Lakin onların arasında iqtisadiyyatı inkişaf etməkdə olan ölkələr də vardır (Türkiyə, Rusiya, Xorvatiya).

Əlavə 1 ölkələri istixana qazlarının antropogen emissiyalarını məhdudlaşdırmaqla iqlim dəyişikliyinin yumşaldılmasına dair milli siyasətlər qəbul etməyə və müvafiq tədbirlər görməyə, habelə ayrı-ayrılıqda və ya birlikdə 1990-cı il emissiya səviyyələrinə görə atılan addımlar haqqında hesabat verməyə çağırılır. Xüsusi maliyyə öhdəlikləri olan inkişaf etmiş ölkələr Əlavə 2 (Annex II) ölkələri adlanır.

Azərbaycan ölkələri Monreal protokolu ilə nəzarət olunmayan bütün istixana qazları üçün mənbələr üzrə emissiyalarının milli inventarlarını hazırlamaq və onların udma qurğuları vasitəsilə atılması öhdəliyinə əməl etmək istiqamətində inkişaf etməkdə olan ölkələrin çəkdiyi xərcləri ödəmək üçün yeni və əlavə maliyyə resursları təqdim etməyə çağırılır. Bundan sonra inkişaf etməkdə olan ölkələrdən öz inventarlarını BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) katibliyinə təqdim etmələri tələb olunur.

Konvensiyanın tərəfdarları iqlim dəyişikliyi ilə mübarizədə irəliləyişi qiymətləndirmək üçün 1995-ci ildən etibarən hər il keçirilən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri Konfranslarında (COP) görüşürlər.

COP 1997-ci il Kioto Protokolu və 2015-ci il Paris Sazişi kimi əsas beynəlxalq müqavilələr üzrə danışıqlar üçün forum olmuşdur. Bu sənədlər istixana qazları emissiyalarının azaldılması və baş verən iqlim dəyişmələrinə uyğunlaşma istiqamətində mühüm addımlardır [4].




**Şəkil 1**

**Kioto Protokolu**

1995-ci ildə iqlim dəyişikliyinə qlobal reaksiyanın gücləndirilməsi üzrə danışıqlara başlanılmış, 1997-ci il dekabrın 11-də Yaponiyanın Kioto şəhərində UNFCCC-nin 3-cü tərəfdaşlar konfransı (COP3) çərçivəsində danışıqlar yolu ilə Kioto protokolu qəbul edilmiş və 2005-ci ilin fevralında qü-

vvəyə minmişdir [4, 7, 8]. Azərbaycan Respublikası Milli Məclisin 18 iyul 2000-ci il tarixli Qərarı ilə bu Protokola qoşulmuşdur.

Kioto Protokolu qlobal istiləşməyə səbəb olan istixana qazlarının atmosferə tullantılarını məhdudlaşdırır [4]. Kioto Protokolu inkişaf etmiş ölkə tərəfləri üçün hüquqi cəhətdən məcburi emissiyaların azaldılması öhdəliklərini müəyyən etmişdir [7].

Kioto bu günə qədər iqlim danışıqlarında yeganə bağlayıcı sənəd kimi əhəmiyyət daşıyır. Lakin dünya üzrə ən böyük emissiyaçıların imzalamaması səbəbindən qlobal emissiyaların yalnız 18%-i əhatə olunmuşdur. Kioto-nun əsas hədəfləri 1990 səviyyələrinə görə müəyyənləşdirilmişdir: ABŞ 7%, AB 8% azalma, Avstraliya isə 8% artım.

Həmçinin, Kyoto Təmiz İnkişaf Mexanizmi (CDM) və karbon bazarları kimi mexanizmləri tətbiq etmişdir. CDM-də digər ölkələrdə dayanıqlı layihələrə sərmayə qoyanlar, öz ölkələrində istixana qazı kreditləri qazanır və bu, dayanıqlı layihələrə sərmayəni "daha çox çirkləndirmək lisenziyası" ilə eyniləşdirir. Karbon bazarları isə COP26-da daha da inkişaf etdirilmişdir, xüsusən Paris Sazişinin 6-cı maddəsinin yenidən baxılması və qismən emissiyaların delokallaşdırılması məsələsi mübahisəli olmuşdur.

Qlobal Şimal və Cənub ölkələri arasında, xüsusən yüksək tarixi emissiyalı və yeni sənayeləşmiş ölkələr arasında dialoq həmişə həssas olub. Məsələn, Cənubi Afrika nümayəndəsi Nozipho Joyce Mxakato-Diseko bildirmişdir ki, Afrika Qrupunun təklifləri həmkarlar tərəfindən apartheid dövründə qaradərili əksəriyyətin yaşadığı təcrübəyə bənzər laqeydliklə qarşılanır [1].

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına əlavə olan Kioto Protokolu üzrə istilik effekti yaradan qazların azaldılmasına dair öhdəliklərin yerinə yetirilməsinin birinci mərhələsi (2008-2012-ci illər) başa çatdıqdan sonra 8 dekabr 2012-ci il tarixində Qətərin paytaxtı Dohada Birləşmiş Millətlər Təşkilatının "İqlim dəyişmələri haqqında" Çərçivə Konvensiyasına dair Kioto Protokoluna Doha Düzəlişi 2013-cü ildən başlayaraq 2020-ci ilə qədər davam edən ikinci öhdəlik müddəti (2013-2020-ci illər) üçün qəbul edilmişdir.

Birinci öhdəlik müddətində 37 sənayeləşmiş və keçid dövrünü yaşayan ölkə və Avropa Birliyi istixana qazı emissiyalarını 1990-cı il səviyyəsindən orta hesabla beş faiz aşağı azaltmağı öhdəsinə götürdü. İkinci öhdəlik müddətində Tərəflər 2013-cü ildən 2020-ci ilə qədər səkkiz illik dövr ərzində istixana qazları emissiyalarını 1990-cı il səviyyəsindən ən azı 18 faiz aşağı azaltmağı öhdələrinə götürdülər; lakin ikinci öhdəlik müddətində Tərəflərin tərkibi birincidən fərqlənir.

Kioto protokoluna Doha düzəlişi 14 aprel 2015-ci il tarixində Azərbaycan Respublikası Milli Məclisi tərəfindən ratifikasiya edilmişdir.

**Paris Sazişi**

Paris sazişi iqlim dəyişikliyi ilə bağlı beynəlxalq müqavilədir [4]. Saziş UNFCCC çərçivəsində iqlim rejiminin təkamülündə ən son mərhələni təmsil edir [7]. Paris sazişi 2015-ci ildə Fransanın paytaxtı Paris yaxınlığında BMT-nin İqlim Dəyişikliyi Konfransında 196 ölkə tərəfindən müzakirə edilib. Paris sazişi 2016-cı il aprelin 22-də BMT-nin Nyu-Yorkdakı Baş Qərargahında keçirilən mərasimdə imzalanmaq üçün açılıb. Avropa İttifaqı sazişi ratifikasiya etdikdən sonra, 4 noyabr 2016-cı il tarixində qüvvəyə minməsi üçün dünyanın bir çox ölkəsi sazişi ratifikasiya etmişdir.

2023-cü ilin fevralına olan məlumata görə, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) 195 üzvü sazişin tərəfdarıdır. Müqaviləni ratifikasiya etməyən UNFCCC-nin üç üzv dövlətindən yeganə əsas emissiya edən İrandır. ABŞ 2020-ci ildə sazişdən çıxsa da, 2021-ci ildə yenidən sazişə qoşuldu [4].

Paris sazişi dayanıqlı, aşağı karbonlu gələcək üçün zəruri olan tədbirlərin və investisiyaların sürətləndirilməsini və intensivləşdirilməsini hədəfləyir. Onun əsas məqsədi bu əsrdə qlobal temperatur artımını sənaye öncəsi səviyyələrlə müqayisədə 2°C-dən (3.6 °F) xeyli aşağı səviyyədə saxlamaq və temperatur artımını 1,5°C (2.7 °F) ilə məhdudlaşdırmaq üçün səyləri davam etdirməkdir. Eyni zamanda, Saziş ölkələrin iqlim dəyişikliyinin təsirlərinə qarşı dayanıqlılığının gücləndirilməsini də qarşıya məqsəd qoyur [7]. Emissiyalar mümkün qədər tez azaldılmalı və XXI əsrin ortalarında xalis sıfıra çatmalıdır. Qlobal istiləşmənin 1,5 °C-nin altında qalması üçün, 2030-cu ilə qədər emissiyaların təxminən 50% azaldılması lazımdır. Bu hər bir ölkənin milli olaraq müəyyən edilmiş töhfələrinin məcmusudur [4].

Professor Christina Voigt qeyd edir ki, Paris Sazişi həm də peer pressure (bərabəraralı təzyiq) mühitində formalaşmışdır: yəni ən təsirli siyasi aktorlar daha ambisiyalı hədəflər təyin etməyə məcbur edilirlər ki, bu da ümumi ssenarini daha ambisiyalı edir. Bununla yanaşı, yuxarıdan-aşağı yanaşmanın milli səviyyədə könüllü töhfələr sisteminə çevrilməsi, iqlim danışıqlarına etimadsızlıq mühiti yaratmışdır, çünki hədəflərin həyata keçirilməməsi demək olar ki, əvvəlcədən məlum idi [1].

Paris Sazişi Milli Məclis tərəfindən 28 oktyabr 2016-cı ildə ratifikasiya edilmişdir. Saziş ilə əlaqədar olaraq Azərbaycan Respublikası özünün Nəzərdə Tutulan Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr (INDC) üzrə sənədini 2015-ci ilin oktyabr ayında Konvensiya katibliyinə təqdim etmiş və qlobal iqlim dəyişmələrinin qarşısının alınması təşəbbüslərinə özünün töhfəsi olaraq 1990-cı baza ili ilə müqayisədə 2030-cu ilə istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35% azalmanı hədəf kimi götürmüşdür.

**Yaşıl İqlim Fondu**

Yaşıl İqlim Fondu qlobal iqlim dəyişmələrindən yaranan problemlərə qarşı mübarizədə inkişaf etməkdə olan ölkələrə maliyyə dəstəyi vermək üçün yaradılmışdır. Fond BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının maliyyə mexanizmi kimi fəaliyyət göstərir və mütəmadi olaraq bu Konvensiyanın Tərəflər Konfransına hesabat verir. Yaşıl İqlim Fondu Tərəflər Konfransının (COP) XVI sessiyasında təsis edilmişdir. 2015-ci ildən fəaliyyət göstərən Fond indiyədək 43 ölkədən (o cümlədən 8 inkişaf etməkdə olan ölkədən), həmçinin maliyyə müstəqilliyi olan bəzi şəhər və regionlardan 10,3 milyard ABŞ dolları ekvivalentində maliyyə vəsaiti səfərbər etmişdir.

2018-ci ilin fevral ayından etibarən BMT-nin İnkişaf Proqramının Azərbaycandakı Nümayəndəliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə "Azərbaycanın Yaşıl İqlim Fondu ilə Əməkdaşlığına Hazırlığı" layihəsini icra etməyə başlamışdır. Layihənin məqsədi Azərbaycanı Yaşıl İqlim Fondu ilə əməkdaşlığa hazırlamaq, Azərbaycanda adaptasiya və mitiqasiya tədbirlərinin həyata keçirilməsi istiqamətində bilik və bacarıqları artırmaqdır.

**COP**

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransları planetin iqliminin vəziyyətinin müzakirə edildiyi ən böyük və ən mühüm illik görüşlərdir [ 4 ].

**Aprel 1995, Berlin (COP1)**. 1995-ci ildə Tərəflərin birinci Konfransı (COP1) Berlində keçirilmişdir. Almaniyanın həmin dövrdəki ətraf mühit naziri Angela Merkel konfransa sədrlik etmişdir. Tərəflər Konvensiya üzrə mövcud öhdəliklərin məqsədlərə çatmaq üçün "qeyri-kafi" olduğunu qəbul etmişlər. Berlin Mandatı inkişaf etmiş ölkələr üçün daha güclü öhdəliklərin razılaşdırılması prosesini başlatmış və beləliklə, Kioto Protokolunun qəbuluna zəmin yaratmışdır.

**Avqust 1996, Bonn (COP2)**. 1996-cı ildə UNFCCC Katibliyi Konvensiya üzrə fəaliyyətləri dəstəkləmək məqsədilə institusionallaşdırılmışdır. Katiblik Geneva şəhərindən Bonn şəhərinə köçürülmüşdür. Bu addım Bonnun beynəlxalq dayanıqlılıq mərkəzinə çevrilməsinə təkan vermiş və şəhər 18 BMT qurumuna ev sahibliyi etməyə başlamışdır ki, onların da ən böyüyü UNFCCC-dir.

**Dekabr 1997, Kyoto (COP3)**. Tərəflərin üçüncü Konfransı (COP3) tarixdə ilk istixana qazı emissiyalarının azaldılmasına dair hüquqi məcburi beynəlxalq müqavilə olan Kioto Protokolunun qəbul edilməsi ilə mühüm mərhələ təşkil etmişdir.

**İyul 2001, Bonn (COP6-nın II hissəsi)**. Altıncı Konfransın ikinci hissəsində hökumətlər Kioto Protokolunun əməliyyat qaydaları üzrə geniş siyasi razılığa nail olmuşlar.

**Noyabr 2001, Mərakeş (COP7)**. Yeddinci Konfrans Mərakeş Razılaşmalarının qəbul edilməsi ilə nəticələnmişdir. Bu sənədlər Kioto Protokolunun ratifikasiyası və icrası üçün zəruri olan əməliyyat qaydalarını, beynəlxalq emissiya ticarəti, Təmiz İnkişaf Mexanizmi (CDM) və Birgə İcra mexanizmlərini, uyğunluq rejimini və uçot prosedurlarını müəyyən etmişdir.

Həmin il Intergovernmental Panel on Climate Change (IPCC) Üçüncü Qiymətləndirmə Hesabatını dərc etmişdir.

**Yanvar 2005, Aİ Emissiya Ticarət Sistemi**. Dünyanın ilk və ən böyük emissiya ticarət mexanizmi olan Aİ Emissiya Ticarət Sistemi fəaliyyətə başlamışdır.

**16 Fevral 2005, Kioto Protokolunun qüvvəyə minməsi**. Rusiya Federasiyası tərəfindən ratifikasiya sənədinin təqdim edilməsindən sonra Kyoto Protokolu qüvvəyə minmişdir.

**Dekabr 2005, Monreal (COP11 / CMP1)**. Kyoto Protokolunun qüvvəyə minməsindən sonra ilk dəfə olaraq COP11 Kyoto Protokolu üzrə Tərəflərin Görüşü (CMP1) ilə birlikdə keçirilmişdir. Bu çərçivədə Əlavə I Tərəfləri üçün sonrakı öhdəliklər üzrə danışıqlar başlanmışdır.

**Yanvar 2006, CDM-in fəaliyyətə başlaması**. Kyoto Protokolunun əsas mexanizmlərindən biri olan Təmiz İnkişaf Mexanizmi (CDM) rəsmi şəkildə fəaliyyətə başlamışdır.

**Noyabr 2006, Nairobi (COP12)**. SBSTA iqlim dəyişikliyinin təsirləri, həssaslıq və uyğunlaşma məsələlərini əhatə edən Nairobi İş Proqramının həyata keçirilməsi mandatını almışdır.

**Dekabr 2007, Bali (COP13)**. Bali Yol Xəritəsi və Bali Fəaliyyət Planı qəbul edilmişdir. Bu sənəd-

lər post - 2012 dövrü üçün yeni danışıqlar prosesini müəyyən etmişdir. Həmin il IPCC-nin Dördüncü Qiymətləndirmə Hesabatı dərc edilmişdir.

**Yanvar 2008, Birgə İcra mexanizmi**. Kyoto Protokolunun Birgə İcra mexanizmi fəaliyyətə başlamışdır.

**Dekabr 2008, Poznan (COP14)**. Adaptasiya Fondunun fəaliyyətə başlaması və Texnologiya Transferi üzrə Poznan Strateji Proqramı kimi mühüm addımlar atılmışdır.

**Dekabr 2009, Kopenhagen (COP15)**. Konfrans çərçivəsində Kopenhagen Razılaşması hazırlanmışdır. İnkişaf etmiş ölkələr 2010 - 2012-ci illər üçün 30 milyard ABŞ dollarına qədər "sürətli başlanğıc maliyyəsi" vəd etmişlər.

**Dekabr 2010, Cancun (COP16)**. Cancun Razılaşmaları qəbul edilmiş, Yaşıl İqlim Fondu, Texnologiya Mexanizmi və Cancun Adaptasiya Çərçivəsi təsis edilmişdir.

**Dekabr 2011, Durban (COP17)**. Hökumətlər 2020-ci ildən sonrakı dövr üçün universal iqlim sazişinin 2015-ci ilə qədər qəbul edilməsi barədə razılığa gəlmişlər və Durban Platforması təsis edilmişdir.

**Dekabr 2012, Doha (COP18 / CMP8)**. Hökumətlər 2015-ci ilə qədər universal sazişin hazırlanmasını sürətləndirməyə və 2020-ci ilə qədər səyləri artırmağa razılaşmışlar. Doha Dəyişikliyi qəbul edilərək Kioto Protokolunun ikinci öhdəlik dövrü başlanmışdır.

**Sentyabr 2013, Bonn (UNFCCC Katibliyinin yeni qərargahı)**. UNFCCC Katibliyi Bonn şəhərində BMT Kampusundakı yeni qərargahına köçmüşdür. Bu, qurumun institusional fəaliyyətinin daha da möhkəmləndirilməsinə xidmət etmişdir. Əsaslı təkmilləşdirmələrdən sonra bina hazırda günəş enerjisindən istifadə və ağıllı işıqlandırma kimi innovativ texnologiyaların tətbiqi sayəsində yüksək ekoloji səmərəliliyin nümunəsinə çevrilmişdir.

**Sentyabr 2013, Intergovernmental Panel on Climate Change (IPCC)**. IPCC İqlim Dəyişikliyi üzrə Beşinci Qiymətləndirmə Hesabatının (AR5) I İşçi Qrupuna aid töhfəni - iqlim dəyişikliyinin elmi əsaslarına dair hesabatı dərc etmişdir.

**Noyabr 2013, Varşava (COP19)**. Tərəflərin On Doqquzuncu Konfransı Varşava Nəticələrini qəbul etmişdir. Buraya meşələrin qırılması və meşə deqradasiyasından yaranan emissiyaların azaldılması (REDD+) üzrə qaydalar toplusu, habelə iqlim dəyişikliyinin uzunmüddətli təsirlərindən irəli gələn itki və zərərlər üçün mexanizm daxildir. COP19 / CMP9 çərçivəsində Durban Platformasının irəlilədilməsi, Yaşıl İqlim Fondu, Uzunmüddətli Maliyyə üzrə əsas qərarlar qəbul edilmişdir. Tərəflər Paris Konfransından xeyli əvvəl nəzərdə tutulan milli səviyyədə müəyyən edilmiş töhfələrin (INDC) təqdim edilməsi barədə razılığa gəlmişlər.

**Mart 2014, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (UNFCCC)**. UNFCCC-nin qüvvəyə minməsinin 20 illiyi qeyd olunmuşdur.

**Mart 2014, IPCC**. IPCC AR5-in II İşçi Qrupuna aid töhfəni - iqlim dəyişikliyinin təsirləri, uyğunlaşma və həssaslıq üzrə hesabatı yayımlamışdır.

**Sentyabr 2014, New York**. BMT Baş katibi Pan Gi-Mun tərəfindən təşkil olunan İqlim Sammiti dövlət və hökumət başçılarını, biznes, maliyyə, vətəndaş cəmiyyəti və yerli liderləri COP21 (Paris, 2015) ərəfəsində fəaliyyət və ambissiyanı səfərbər etməyə çağırmışdır.

**Dekabr 2014, Lima (COP20)**. COP 20-də "Lima Fəaliyyətə Çağırış" qəbul edilmiş, Parisdə bağlanacaq razılaşmanın əsas elementləri formalaşdırılmışdır.

**Dekabr 2015, Paris (COP21)**. COP21 Kyotonu əvəzləmək və dövlətlərin milli səviyyədə müəyyən etdiyi hədəfləri öz üzərlərinə götürməsi üçün diplomatik və daha sərbəst bir yanaşma ilə çıxış etmişdir. Paris Sazişi qəbul edilmişdir. 195 ölkə iqlim dəyişikliyi ilə mübarizə və aşağı karbonlu, dayanıqlı gələcək üçün tədbir və investisiyaların səfərbər edilməsi barədə razılığa gəlmişdir. Saziş ilk dəfə bütün ölkələri tarixi, mövcud və gələcək məsuliyyətlər əsasında ümumi məqsəd ətrafında birləşdirmişdir. 2012-2015-ci illərdə Durban Platforması üzrə Ad-hoc İşçi Qrupu (ADP) çərçivəsində aparılan intensiv danışıqlar Paris Sazişinin qəbulu ilə yekunlaşmışdır.

**Noyabr 2016, Mərakeş (COP22)**. Paris Sazişinin icra qaydalarının hazırlanması istiqamətində mühüm irəliləyiş əldə edilmiş, Mərakeş Qlobal İqlim Fəaliyyəti Tərəfdaşlığı başladılmışdır. Konfrans Paris Sazişinin icrasının faktiki olaraq başlandığını nümayiş etdirmişdir.

**Noyabr 2017, Bonn (COP23)**. COP 23 Bonn şəhərində keçirilmiş və tarixdə ilk dəfə olaraq kiçik ada inkişaf etməkdə olan dövlətinin - Ficinin sədrliyi altında baş tutmuşdur. Konfransda 2020-dən əvvəl ambissiyanın artırılması üzrə növbəti addımlar razılaşdırılmış və Talanoa Dialoqu başlanmışdır.

**Dekabr 2017, One Planet Summit**. Paris şəhərində keçirilən sammitdə aşağı karbonlu gələcəyə yönəlmiş maliyyə axınlarının səfərbər edilməsi öhdəlikləri elan edilmişdir.

**Oktyabr 2018, IPCC**. IPCC-nin 1,5 °C üzrə Xüsusi Hesabatı qlobal istiləşmənin ən ağır təsirlərinin qarşısını almaq üçün Paris Sazişinin məqsədlərinə sadiqliyin vacibliyini təsdiqləmişdir.

**Dekabr 2018, Katovitse (COP24)**. Hökumətlər Katovitse İqlim Paketini qəbul edərək Paris Sazişinin icrası üçün əhatəli təlimatları təsdiqləmiş, beynəlxalq əməkdaşlığı və ambisiyanın artırılmasını təşviq etmişlər.

**Mart 2019, Akra**. Afrika İqlim Həftəsi 2019-cu ilin ilk Regional İqlim Həftəsi kimi keçirilmiş, Paris Sazişi çərçivəsində NDC-lərin icrasını və 2030 Dayanıqlı İnkişaf Məqsədlərinə töhfəni dəstəkləmişdir.

**Avqust 2019, Salvador**. Latın Amerikası və Karib Hövzəsi İqlim Həftəsi müxtəlif dövlət və özəl sektor aktorlarını bir araya gətirmiş və iqlim fəaliyyətinin gücləndirilməsinə beynəlxalq dəstəyin mövcudluğunu nümayiş etdirmişdir.

**Sentyabr 2019, Shenzhen**. Asiya-Sakit Okean İqlim Həftəsi regionda qabaqcıl iqlim fəaliyyətinin nümayişi üçün əsas platformaya çevrilmişdir.

**Sentyabr 2019, New York**. BMT Baş katibi Antonio Quterreş tərəfindən təşkil olunan İqlim Fəaliyyəti Sammiti Paris Sazişinin icrasını sürətləndirmək və ambisiyanı artırmaq məqsədi daşımışdır.

**Dekabr 2019, Madrid (COP25)**. Konfrans Paris Sazişinin tam əməliyyatlaşdırılmasına dair qalan məsələlərin tamamlanmasını, habelə 2020-ci il ərəfəsində ambisiyanın artırılmasını hədəfləmişdir. Maliyyə, şəffaflıq, meşələr və kənd təsərrüfatı, texnologiya, potensialın artırılması, itki və zərər, yerli xalqlar, şəhərlər, okeanlar və gender sahələrində mühüm qərarlar qəbul edilmişdir. Bununla belə, 2050-ci ilə qədər karbon neytrallığı və 1,5 °C hədəfi üzrə razılaşma əldə olunmamışdır. Çilinin rəhbərliyi ilə İqlim Ambisiyası Alyansı çərçivəsində çoxsaylı ölkələr, regionlar, şəhərlər, bizneslər və investorlar 2050-ci ilə qədər xalis sıfır $CO_2$ emissiyası məqsədini bəyan etmiş, 114 ölkə isə növbəti il təkmilləşdirilmiş iqlim fəaliyyət planları təqdim edəcəyini bildirmişdir [7].

**Oktyabr 2021, Qlazqo (COP26)**. Konfransda təhlükəli iqlim dəyişikliyinin qarşısının alınmasına yönəlmiş "Qlazqo İqlim Paktı" razılaşması əldə olunub. Paktda qlobal istiləşməni 1,5 °C səviyyəsində saxlamaq, kömürdən istifadəni məhdudlaşdırmaq, yoxsul ölkələrə maliyyə yardımını artırmaq kimi məsələlər qeyd olunub. Bu Pakt istixana qazları üçün qalıq yanacaq olan kömürün azaldılmasını açıq şəkildə planlaşdıran ilk iqlim sazişidir. Konfrans zamanı kömürdən istifadəni dayandırmaq vəd olunsa da, Hindistanın buna qarşı çıxması ilə kömürdən mərhələli şəkildə imtina qərarı qəbul olunub [4].

**Noyabr 2024, Bakı (COP29)**. Azərbaycanda keçirilən COP29 iqlim fəaliyyətini sürətləndirmək və Paris Sazişinin məqsədlərinə nail olmaq üçün tarixi görüş hesab olunur. Əsas nailiyyətlərə aiddir:

COP29-da inkişaf etməkdə olan ölkələr üçün 2035-ci ilə qədər iqlim maliyyəsinin illik ən azı 1.3 trilyon dollara çatdırılması hədəfi ortaya qoyuldu.

İqlim maliyyəsi üzrə tarixdə ilk dəfə konkret rəqəm üzərində razılıq əldə olundu - Yeni Kollektiv Kəmiyyət Hədəfi (NCQG) əvvəlki öhdəliklərlə müqayisədə üçqat artırılaraq daha yüksək səviyyədə müəyyən edildi.

İqlim fəaliyyətinə sərmayə qoyuluşu təşviq edilərək, maliyyə bazarlarına açıq bir siqnal verildi. İqlim maliyyələşdirməsinin keyfiyyətini və təsirini əhəmiyyətli dərəcədə artırmağa yönəlmiş vacib elementlər razılaşdırıldı.

10 il davam edən müzakirələrdən sonra, Paris Sazişinin 6-cı Maddəsi altında karbon bazarlarının qurulması üçün razılaşma əldə edildi. Bu razılaşmanın 2050-ci ilə qədər hər il 1 trilyon dollar əlavə iqtisadi resurs yaratması gözlənilir. Bu resurslar inkişaf etməkdə olan ölkələrə yönəldiləcəkdir.

İtki və Zərər Fondu tam işlək fəaliyyətə başladı və vəsaitlərin istifadəsinə tam hazır vəziyyətə gəldi. Özəl sektor da daxil olmaqla, çoxtərəfli İnkişaf bankları 2030-cu ilə qədər kollektiv iqlim maliyyələşdirilməsi üçün illik 170 milyard ABŞ dollarına çatmağı planlaşdırdıqlarını elan etdi. Ümumi sərvəti 10 trilyon ABŞ dolları olan aktiv sahibləri iqlim fəaliyyətinə vəsait ayırmaq üçün birləşdilər.

Qlobal Adaptasiya Məqsədinə çatmaq üçün lazım olan diqqət və dəstəyi təmin etmək məqsədilə, dünya miqyasında uyğunlaşma səylərini sürətləndirmək üçün Bakı Adaptasiya Yol Xəritəsi və Bakı Yüksək Səviyyəli Dialoqu təsis edilmişdir. Bu təşəbbüslər, iqlim dəyişikliyinə uyğunlaşma sahəsində əməkdaşlığı və tədbirləri gücləndirməyə yönəlmişdir [2].

**Noyabr 2025, Belem (COP30)**. COP30 bir sıra mühüm ildönümləri fonunda keçirilmişdir: bu konfrans Kioto Protokolunun qüvvəyə minməsindən 20 il, Paris Sazişinin qəbulundan isə 10 il keçməsini qeyd etdi [6]. COP30 struktur problemləri, qeyri-bərabərlik, maliyyə çatışmazlığı və siyasi toqquşmalarla gündəmdə oldu. Bu problemlər tədbirin effektivliyinə xələl gətirdi və iqlim hədəflərinə çatmaq üçün real addımların atılmasını çətinləşdirdi [5].

**Noyabr 2026, Antalya (COP31)**. Konfrans Paris Sazişi çərçivəsində götürülmüş öhdəliklərin həyata keçirilməsini irəli aparmaq və qlobal iqlim fəaliyyətini gücləndirmək məqsədilə hökumətləri, beynəlxalq təşkilatları, biznes sektorunu və vətəndaş cəmiyyətini bir araya gətirəcək [3].

**Nəticə**

İqlim dəyişikliyi ilə mübarizə sahəsində qlobal əməkdaşlıq son onilliklər ərzində mərhələli şəkildə formalaşaraq daha kompleks və institusional xarakter almışdır. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası və onun çərçivəsində keçirilən Tərəflər Konfransları (COP) bu prosesin əsas platforması kimi çıxış edərək dövlətlər arasında dialoqu, qərar qəbuletməni və birgə fəaliyyət mexanizmlərini təmin etmişdir. COP prosesinin inkişafı nəticəsində Kioto Protokolu və Paris Sazişi kimi mühüm beynəlxalq sənədlər qəbul edilmiş, istixana qazı emissiyalarının azaldılması, iqlim dəyişikliyinə uyğunlaşma və iqlim maliyyələşdirilməsi sahələrində yeni mexanizmlər yaradılmışdır.

Bununla yanaşı, qlobal iqlim idarəçiliyi prosesində dövlətlər arasında məsuliyyət bölgüsü, maliyyə resurslarının təmin edilməsi və tarixi emissiyalar məsələsi kimi mövzular hələ də mühüm müzakirə predmetidir. Son COP konfransları iqlim maliyyəsinin artırılması, karbon bazarlarının inkişafı və adaptasiya tədbirlərinin gücləndirilməsi istiqamətində irəliləyişlərin əldə olunduğunu göstərsə də, qlobal temperatur artımının məhdudlaşdırılması üçün daha güclü siyasi iradə və koordinasiyalı beynəlxalq əməkdaşlıq tələb olunur. Bu baxımdan, COP prosesi gələcəkdə də qlobal iqlim siyasətinin formalaşmasında və dövlətlərin iqlim öhdəliklərinin həyata keçirilməsində mühüm rol oynamağa davam edəcəkdir.

Resurslar uğrunda artan mübarizə, yerli çirklənmədən yaranan icmaların parçalanması, eləcə də dəniz səviyyəsinin yüksəlməsi və bəzi bölgələrin əriməsi nəticəsində qlobal coğrafiyanın dəyişməsi beynəlxalq münasibətlərdə sülh və təhlükəsizlik üçün yeni çağırışlar yaradır. Bu baxımdan iqlim dəyişikliyi artıq yalnız ekoloji problem deyil, həm də beynəlxalq təhlükəsizlik, dayanıqlı inkişaf və qlobal idarəetmə məsələsi kimi qiymətləndirilməlidir.

**ƏDƏBİYYAT SİYAHISI:**


1. *Barroco L.B. UN Climate Action: Why are COPs failing to deliver From COP 26 towards an Ecocentric future / magistr dərəcəsi, dis./ – Lissabon, 2022. – 132 s.*
2. *COP29: Bakıda nailiyyətlər / COP29 Baku Azerbaijan. – https://cop29.az/az/pages/cop29-breakthroughs-in-baku*
3. *COP31'e doğru: İklim eyleminde yeni bir dönem için İstanbul'dan güçlü bir mesaj verildi / Birleşmiş Milletler Türkiye. – 2026. – https://turkiye.un.org/tr/310189-cop31e-do%C4%9Fru-i%CC%87klim-eyleminde-yeni-bir-d%C3%B6nem-i%C3%A7in-i%CC%87stanbuldan-g%C3%BC%C3%A7l%C3%BC-bir-mesaj-verildi*
4. *COP-un tarixi, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası*
5. *Əliyeva İ., COP30: nəticələr gözləntiləri doğrultmadı: "Azərbaycan" / Azərbaycan rəsmi dövlət qəzeti. – 2025. – https://www.azerbaijan-news.az/az/posts/detail/cop30-neticeler-gozlentileri-dogrultmadi-1764028309/375789*
6. *Federative Republic of Brazil COP30 President-Designate // 10 mart 2025. – 10 s.*
7. *Kumar S., CLIMATE CHANGE: KEY DEVELOPMENTS FROM UNFCCC COP1 TO COP25 / Kumar Vikal Y., Kumar S., Kumar P. // Green İnitiatives and Sustainable Development, – Meerut: –2020. 1, ISBN: 978-81-942503-2-6, – 436 s.*
8. *Uprety B.K. Climate Change Negotiation: Understanding the Process // – Kathmandu: Climate Change and UNFCCC Negotiation Process, – 2012. – 105 s.*


## Историческая траектория и трансформация глобального сотрудничества по вопросам изменения климата в рамках процесса COP

**Зейнаб Анар Гиясова**


**РЕЗЮМЕ**

Статья анализирует формирование и развитие глобального сотрудничества в области борьбы с изменением климата в рамках Рамочной конвенции ООН об изменении климата и Конференций Сторон (COP). По мере продвижения ко второй четверти XXI века международное сообщество все больше нуждается в размышлениях над общими человеческими ценностями, такими как мир и благополучие, надежда и обновление, единство и сплоченность, устойчивость и инклюзивность. Эти ценности подчеркивают коллективную ответственность государств и необходимость сотрудничества на фоне глобальных вызовов, таких как изменение климата.

Исследование показывает, что хотя история социальных движений, направленных на охрану природы, восходит к концу XIX века, их институциональное оформление и переход на многостороннюю переговорную площадку произошли во второй половине XX века. Этот процесс заложил основу для появления климатически ориентированной дипломатии. Поскольку дипломатия является основным инструментом внешней политики для урегулирования конфликтов и по-

строения сотрудничества, влияние изменения климата на общества и глобальную безопасность сделало формирование новых дипломатических подходов в этой сфере неизбежным.

В исследовании отмечается, что в результате Конференции в Рио-де-Жанейро 1992 года были подготовлены документы, а эта конференция сформировала центральный координационный механизм в рамках UNFCCC. UNFCCC, а также COP в Киото, Копенгагене, Париже и Глазго обеспечивают институциональную и операционную преемственность.

**Ключевые слова:** *изменение климата, глобальное сотрудничество, процесс COP, климатическая политика, Киотский протокол, Парижское соглашение*

**Historical Trajectory and Transformation of Global Cooperation on Climate Change within the Framework of the COP Process**

**Zeynab Anar Giyasova**

**SUMMARY**

The article analyzes the formation and development of global cooperation in combating climate change within the framework of the UN Framework Convention on Climate Change (UNFCCC) and the Conferences of the Parties (COP). As the international community progresses toward the second quarter of the 21st century, there is an increasing need to reflect on shared human values such as peace and prosperity, hope and renewal, unity and solidarity, resilience, and inclusiveness. These values highlight the collective responsibility of states and the necessity of cooperation against global challenges like climate change.

The research shows that while the history of social movements aimed at environmental protection dates back to the late 19th century, their institutional formation and transition to a multilateral negotiation platform occurred in the second half of the 20th century. This process laid the groundwork for climate-oriented diplomacy. Since diplomacy is a key foreign policy tool for conflict resolution and cooperation building, the impact of climate change on societies and global security has made the development of new diplomatic approaches in this field inevitable.

The study notes that as a result of the 1992 Rio-de-Janeiro Conference, documents were prepared, and this conference established the central coordination mechanism under the UNFCCC framework. The UNFCCC, along with COPs in Kyoto, Copenhagen, Paris, and Glasgow, provides institutional and operational continuity.

**Keywords:** *climate change, global cooperation, COP process, climate policy, Kyoto Protocol, Paris Agreement.*

**ÖZET**

Makale, iklim değişikliğiyle mücadelede küresel iş birliğinin oluşumunu ve gelişimini BM İklim Değişikliği Çerçeve Sözleşmesi (UNFCCC) ve Taraflar Konferansları (COP) çerçevesinde analiz etmektedir. 21. yüzyılın ikinci çeyreğine doğru ilerledikçe, uluslararası toplum, barış ve refah, umut ve yenilenme, birlik ve dayanışma, dirençlilik ve kapsayıcılık gibi ortak insani değerler üzerine düşünmeye daha çok ihtiyaç duymaktadır. Bu değerler, iklim değişikliği gibi küresel zorluklar karşısında devletlerin kolektif sorumluluğunu ve iş birliği gerekliliğini ön plana çıkarmaktadır.

Araştırma, doğanın korunmasına yönelik sosyal hareketlerin tarihi 19. yüzyılın sonlarına kadar uzansa da, bu hareketlerin kurumsal olarak şekillenmesi ve çok taraflı müzakere platformuna geçişinin 20. yüzyılın ikinci yarısında gerçekleştiğini göstermektedir. Bu süreç, iklim odaklı diplomasinin ortaya çıkmasına zemin hazırlamıştır. Diplomasi, çatışmaların çözümü ve iş birliğinin inşası için temel bir dış politika aracı olduğundan, iklim değişikliğinin topluluklara ve küresel güvenliğe etkisi, bu alanda yeni diplomatik yaklaşımların geliştirilmesini kaçınılmaz kılmıştır.

Araştırmada, 1992 Rio-de-Janeiro Konferansı sonucunda belgelerin hazırlandığı ve bu konferansın UNFCCC çerçevesinde merkezi koordinasyon mekanizmasını oluşturduğu belirtilmektedir. UNFCCC ve Kyoto, Kopenhag, Paris ve Glasgow'daki COP'ler kurumsal ve operasyonel sürekliliği sağlamaktadır.

**Anahtar kelimeler:** *iklim değişikliği, küresel iş birliği, COP süreci, iklim politikası, Kyoto Protokolü, Paris Anlaşması.*

*Rəyçi: Siyasi elmlər doktoru, dosent Cahangir Cahangirli*
*Məqalə redaksiyaya daxil olub: 18.01.2026*
*Çapa qəbul olunub: 07.02.2026*

*The date of the admission of the article to the editorial office: 18.01.2026*
*Accepted for publication: 07.02.2026*